# DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU (IDI)

# AZƏRBAYCAN RESPUBLİKASI

## NÖVBƏDƏNKƏNAR PARLAMENT SEÇKİLƏRİ

## 09 FEVRAL 2020-ci il

# SEÇKİLƏR ÖNCƏSİ QİYMƏTLƏNDİRMƏ SƏNƏDİ

**BAKI**

**25 DEKABR 2019**

## MÜNDƏRİCAT


**I. XÜLASƏ ........................................................................ 3**

**II. GİRİŞ........................................................................ 4**

**III. SECKİQABAĞI VƏZİYYƏT........................................................ 5**

**A. SİYASİ KONTEKST........................................................ 7**

**B. SƏRBƏST TOPLAŞMA........................................................ 9**

1. HÜQUQİ ÇƏRÇİVƏ ........................................................ **9**
2. SƏRBƏST TOPLAŞMA MÜHİTİ........................................................ **10**

**C. VƏTƏNDAŞ CƏMİYYƏTİ........................................................ 11**

**D. MEDİA ........................................................ 12**

**1.** HÜQUQİ ÇƏRÇİVƏ........................................................ **12**
**2.** MEDİA MÜHİTİ........................................................ **12**

**E. MƏHKƏMƏ MÜDAFİƏSİ ........................................................ 14**

1. MƏHKƏMƏNİN VƏZİYYƏTİ ........................................................14
2. VƏKİLLİK İNSTİTUTU ........................................................15

**F. AİHM SEÇKİ QƏRARLARI VƏ ONLARIN İCRA VƏZİYYƏTİ........................15**

**IV. SEÇKİ SİSTEMİ VƏ HÜQUQİ ÇƏRÇİVƏ........................................................ 17**

**A. SEÇKİ SİSTEMİ ........................................................ 17**
**B. HÜQUQİ ÇƏRÇİVƏ........................................................ 17**

**V. PARLAMENT SECKİLƏRİNƏ HAZIRLIQ........................................................ 18**

**A. SEÇKİ ADMİNİSTRASİYASI........................................................ 18**
**B. SEÇİCİ QEYDİYYATI ........................................................ 18**
**C. SEÇKİ DAİRƏLƏRİNİN TƏŞKİLİ ........................................................ 19**

**VI. NƏTİCƏ VƏ TÖVSİYƏLƏR........................................................ 20**

# I. XÜLASƏ

9 fevral 2020-ci ildə Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Demokratik Təşəbbüslər İnstitutu (IDI) növbədənkənar parlament seçkilərilərinin hansı əsaslarla elan olunması, seçkiöncəsi mühit, seçkilərə hazırlıq prosesi, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarları, həmçinin yerli və beynəlxalq qurumların azad və ədalətli seçkilərin keçirilməsi üçün təklif və tövsiyələrinin icra vəziyyətinə dair qiymətləndirmə aparıb.

IDI hesab edir ki, parlamentin buraxılması ilə bağlı qərar nə mövcud Konstitusiyanın tələbləri çərçivəsində verilib, nə də bu qərar verilərkən (demokratik təcrübənin tətbiqi baxımdan) beynəlxalq qurumların çağırışları nəzərə alınıb.

2020-ci ilin fevral ayının 9-na təyin olunan növbədənkənar parlament seçkiləri də hakim partiyanın inzibati resursları mütləq istifadə etdiyi, real siyasi qüvvələr (iqtidar-müxalifət) arasında siyasi dialoqun yoxluğunun diktə etdiyi, əlverişsiz siyasi mühitdə baş verir.

İndiki durumda da barələrində AİHM-in qərarlarına və AŞ Nazirlər Komitəsinin 5 dekabr tarixli qərarına baxmayaraq, seçkidə potensial namizəd olan keçmiş siyasi məhbusların üzərində məhkumluğun qalması səbəbilə seçkidə iştiraklarına əngəl öz qüvvəsini saxlayır.

Növbədənkənar parlament seçkiləri sərbəst toplaşmaq hüququnun ciddi məhdudlaşdırıldığı bir zamanda keçirilməkdədir.

Keçən dövr ərzində vətəndaş cəmiyyəti təşkilatlarının müstəqil fəaliyyəti iflic edilib və onların gələcək fəaliyyət imkanları qeyri-müəyyən vəziyyətə salınıb. QHT-lərə qarşı 2014-cü ildə açılmış cinayət işi hələ də açıq saxlanılır. Tanınmış vətəndaş cəmiyyəti təmsilçilərinin ölkədən çıxışına qadağa və sərhəd keçid məntəqələrində əsassız yoxlamalar hələ də davam edir.

Seçkiöncəsi meda mühitində əvvəllər də mövcud olan ağır vəziyyət davam edir, hər hansı pozitiv dəyişiklik baş verməyib.

Məhkəmələr hakimiyyətin üçüncü müstəqil qolu və ədalətin bərpası institutu olmaqdan çıxaraq icra hakimiyyətindən tam asılı vəziyyətə düşüb. İslahat adı altında atılan addımlar, əslində, deklorativ xarakter daşıyır və məhkəmələrin müstəqilliyinin təmin edilməsi yönündə irəliləyiş baş verməyib.

2018-ci ilin əvvəlindən nümayəndəlik institutunun ləğvi də toplumu və xüsusilə də onun həssas təbəqələrini faktiki olaraq müdafiəsiz qoyub. Siyasi işlərə çıxan vəkillərin kollegiya üzvlüyü ləğv edildiyi indiki şəraitdə müxalif siyasətçilər seçki şikayətlərinin məhkəmələrdə hüquqi müdafiəsi zamanı vəkilsiz qalacaqlar.

AİHM-in qəbul etdiyi silsilə qərarlara baxmayaraq seçki qanunvericiliyi və təcrübəsinin Avropa Konvensiyasının tələblərinə uyğunlaşdırılması üçün tələb olunan islahatlar keçirilməyib.

MSK əvvəlki müsbət təcrübədən fərqli olaraq bu seçkidə rəsmən namizədliklərini irəli sürmüş şəxslər və partiyalar barədə öz internet resursunda hələki ətraflı məlumat yaymır, yalnız komissiyanın iclaslarının sonunda ümumiləşmiş statistika verir.

Ölkədə seçicilərin sayı ilə bağlı MSK-nın açıqladığı son rəqəmlə Dövlət Statistika Komitəsinin 2019-cu ilə açıqladığı 18 yaşı tamam olmuş səsvermə hüququ olan vətəndaşların sayı üst-üstə düşmür, təqribən 21 faiz - 2 140 098 nəfər fərq ortaya çıxır.

## II. GİRİŞ

9 fevral 2020-ci ildə Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Demokratik Təşəbbüslər İnstitutu (IDI) növbədənkənar parlament seçkilərilərinin hansı əsaslarla elan olunması, seçkiöncəsi mühit, seçkilərə hazırlıq prosesi, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarları, həmçinin yerli və beynəlxalq qurumların azad və ədalətli seçkilərin keçirilməsi üçün təklif və tövsiyələrinin icra vəziyyətinə dair qiymətləndirmə aparıb. Həmçinin bu sənəddə IDI ölkədəki seçkiöncəsi ictimai-siyasi vəziyyətin azad və ədalətli seçkilərin keçirilməsinə təminat verib-verməməsi barədə dəyərləndirmələr aparıb, seçkilərə dair qanunvericiliyin və praktiki vəziyyətin araşdırılması, seçki hüquqlarının pozulmasına səbəb olan amillərin aradan qaldırılması istiqamətində tövsiyələrini verib.

***Tarixçə***

IDI 05.11.2013-cü ildə bir qrup tanınmış hüquqşünas və ictimai xadim tərəfindən yaradılıb. Rəsmi qeydiyyatdan keçmək üçün Ədliyyə Nazirliyinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, qanunsuz olaraq təşkilatın qeydiyyata alınmasından imtina edilib. Bütün daxili məhkəmə instansiyalarına müraciət edilsə də, məhkəmə Ədliyyə Nazirliyinin imtinasını qüvvədə saxlayıb. 11 aprel 2015-ci ildə IDI hüquqarının təmin olunması üçün Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciət edib. AİHM 11 oktyabr 2016-cı ildə iş üzrə dövlətlə kommunikasiyanı bitirib.[1] O dövrdən məhkəmənin qərar verməsi gözlənilir.

Təşkilatın fəaliyyətinin əsas məqsədi demokratik təsisatların, vətəndaş cəmiyyəti və seçki institutlarının səviyyəsinin yüksəldilməsinə; huququn aliliyinin - insan huquqları və ifadə azadlığının təmin edilməsinə; yerli özünüidarəetmənin təkmilləşməsinə; bütün sahələrdə şəffaflığın artırılmasına; Azərbaycan cəmiyyətinin demokratik dünyaya inteqrasiyasına yardım etməkdən ibarətdir.

IDI 23 dekabr 2014-cü il tarixdə keçirilmiş Bələdiyyə seçkilərini və 2015-ci ilin noyabrın 1-də keçirilən parlament seçkilərini müşahidə edib.[2]

Həmçinin 2015-ci il parlament seçkilərində seçkidə iştirak edən 200-dən artıq şəxsə seçki komissiyaları və daxili məhkəmələr müstəvisində huquqi yardım göstərib. Sonda 70 şikayətçinin işinin AİHM-ə göndərilməsinə nail olub.

Bundan əlavə, ölkədə seçicilərin sayına dair real vəziyyəti öyrənmək məqsədilə IDI 2014-cü ildə **"Seçici Qeydiyyatının Auditi"** adlı araşdırma aparıb və 2015-ci ildə dərc edib.[3]

---

[1] http://hudoc.echr.coe.int/eng?i=001-168325
[2] http://idi-aze.org/az/idi-den-sekilerle-bal-ilkin-rey/
[3] http://idi-aze.org/az/seici-qeydiyyatnn-auditi-pdf/

IDI 2015-ci ildə seçkiöncəsi mühitin və seçki prosesinin gedişini tənizimləyən mövcud qanunvericilik bazasının beynəlxalq standartlar çərçivəsində götürülmüş öhdəliklərə cavab verməsi istiqamətində araşdırma aparıb və "***Seçkilərə dair qanunvericiliyin analizi: beynəlxalq normalar, problemlər və perspektivlər"*** adlı nəşr dərc edib.[4]

2019-cu il Bələdiyyə seçkilərində monitorinq təşkil etməsə də, seçkini müşahidə etmək istəyən 200-dən artıq vətəndaşın müraciəti əsasında müşahidəçiliklə bağlı təlimlər keçirib. Seçkidə iştirak edən tərəflərə və seçicilərə müxtəlif istiqamətlərdə hüquqi yardım göstərib, texniki dəstək verib. Həmçinin seçki hüququna dair müxtəlif maarifləndirici məlumatlar yayıb.

IDI seçkilərə dair fəaliyyətində beynəlxalq və yerli qanunvericiliyi, o cümlədən ATƏT/DTİHB və Avropa Şurası Venesiya Komissiyasının tövsiyələrini əsas tutur.

Yuxarıda göstərilən və digər istiqamətlərdə olan fəaliyyətlə bağlı daha ətraflı məlumatı təşkilatın rəsmi saytından əldə etmək olar.[5]

## III. NÖVBƏDƏNKƏNAR PARLAMENT SEÇKİLƏRİNİN ƏSASLARI

5 dekabr 2019-ci ildə Prezident İlham Əliyev mövcud parlamentin buraxılması və növbədənkənar parlament seçkisinin keçirilməsi barədə sərəncam imzaladı və noyabr ayında nəzərdə tutulan seçkinin tarixini 9 ay önə çəkdi. Sərəncamda əsas kimi Konstitusiyanın 98-1-ci maddəsinin I hissəsinə və 109-cu maddəsinin 1-ci bəndinə istinad olunub. Bu, ilk baxışdan qanuni görünsə də, əslində, prezidentin bu sərəncamının verilməsinə aparan yolun əsaslandırılması mövcud Konstitusiyanın tələblərinə zidd həyata keçirilib. Ümumiyyətlə belə səlahiyyətin olması demokratik idarəetmə təcrübəsinə uyğun deyil.

Problemin kökü 26 sentyabr 2016-cı ildə keçirilmiş Referendumla Konstitusiyaya edilən legitim hüquqi əsası olmayan dəyişiklikdən qaynaqlanır. Həmin norma prezidentə növbədənkənar parlament seçkilərini elan etmək səlahiyyəti verir. Prezident üsul-idarəsi olan respublikalarda belə səlahiyyətin verilməsi hakimiyyət bölgüsü prinsipinə ziddir, hakimiyyət qolları arasındakı balansı önəmli dərəcədə zəiflədir və demokratik cəmiyyətin tələbləri baxımından legitim məqsəd sayıla bilməz.
BMT-nin İnsan Hüquqları Komitəsi[6] və Avropa Şurasının Venesiya Komissiyası[7] da yuxarıda qeyd olunmuş kontekstdə ciddi narahatlıqlarını ifadə ediblər. Belə ki, Venesiya Komissiyasının 2016-cı il referendumu ilə bağlı rəyində göstərilirdi ki, indiki şərtlər altında prezidentə parlamenti buraxmaq səlahiyyətinin verilməsi Konstitusiyanın 7-ci maddəsində təsbit olunmuş "hakimiyyətin bölünməsi prinsipi" ilə ziddiyyət təşkil edir. Çünki Azərbaycan güclü prezident respublikasıdır. Prezident dövlət başçısı olmaqla yanaşı, həm də hökumət başçısıdır. Belə olan halda, prezidentə parlamenti buraxmaq səlahiyyətinin verilməsi qanunvericilik hakimiyyətini icraedici hakimiyyətdən asılı vəziyyətə salır.
Beləliklə, prezidentin növbədənkənar parlament seçkilərinin təyin etmə səlahiyyəti və ondan irəli gələrək verdiyi qərarlar qanuni (konstitusion) akt kimi görünsə də, demokratik konstitutisionalizm prinsipləri baxımından qeyri-legitimdir.

---

[4] http://idi-aze.org/az/sekilere-dair-qanunvericiliyin-analizi-pdf/

[5] www.idi-aze.org

[6]http://docstore.ohchr.org/SelfServices/FilesHandler.ashx?enc=6QkG1d%2fPPRiCAqhKb7yhshv33kpjIN1yQcFl-NQGeFnqM5IxR4PQMZWvxmoWXyTsshELrTf%2fHJH%2fqsIqI6FD8OFwu28r7iZSlAYRm9fDeUVCTGadLoglKdYRd4jr-LMRra

[7] https://www.venice.coe.int/webforms/documents/default.aspx?pdffile=CDL-PI(2016)010-e

Həmçinin Prezidentin sərəncamının verilməsilə nəticələnən prosesin əsaslandırılması mövcud Konstitusiyanın tələblərinə zidd həyata keçirilib. Belə ki, 28 noyabr 2019-cu il tarixdə Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurası iclas keçirərək, partiya üzvü olan deputat korpusuna parlamentin buraxılması xahişi ilə Prezidentə müraciət etməsini tövsiyə edib[8]. YAP qərarını Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların qanunverici hakimiyyət sferasından kənar qalmaması zərurətilə əlaqələndirib. Eyni gün YAP üzvü olan deputatlar Milli Məclisə müraciət ediblər[9].
Parlament 2019-cu il, dekabrın 2-də plenar iclasında bu müraciəti müzakirə edib və sonda Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında prezidentə müraciətlə bağlı qərar layihəsini 99 səs çoxluğu ilə qəbul edib[10].

2 dekabr 2019-cu il tarixdə - eyni gündə Prezident Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərib. Bununla əlaqədar eyni gün - dekabrın 2-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclası keçirilib. İclasda Prezidentinin sorğusuna baxılaraq, Plenumun icraatına qəbul edilməsi haqqında qərardad çıxarılıb.[11]

4 dekabr 2019-cu il tarixdə Konstitusiya Məhkəməsi Plenumu sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə baxıb və Qərarını elan edib. Qərara əsasən, Milli Məclisin 2019-cu il 2 dekabr tarixli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 98-1–ci maddəsinin I hissəsinə uyğun hesab edilib.[12]
Bunun ardınca 5 dekabr 2019-cu il tarixdə isə Prezident mövcud Milli Məclisi buraxıb və növbədənkənar parlament seçkilərini 2020 - ci il fevralın 9-na təyin edib.[13]

Araşdırmalar[14] və bu sahədəki ekspertlərin rəyləri göstərir ki, parlamentin buraxılması üçün heç bir konstitusion əsas olmayıb. 2016-cı il Referendumu ilə Konstitusiyaya yeni əlavə edilmiş 98-1 maddəsinin əsasları formalaşmayıb. Belə ki, Milli Məclis Nazirlər Kabinetinə hər hansı etimadsızlıq göstərməyib, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, Mərkəzi Bankın İdarə Heyətinin üzvlərini qanunla müəyyən edilmiş müddətdə təsdiq edib və müvafiq maddələrdə göstərilən vəzifələrini yerinə yetirib. Bu baxımdan, parlamentin buraxılması ilə bağlı qərar düzgün əsaslandırılmayıb. Bundan əlavə, Konstitusiyanın 94-cü və 95-ci maddələrində Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar və həll etdiyi məsələlər dəqiq göstərilib. Parlament ali qanunvericilik orqanı olduğundan onun fəaliyyəti qanunçuluq prinsipi əsasında tənzimlənməlidir. Bir sözlə, parlamentin fəaliyyəti qanunla müəyyənləşdirilən çərçivələrdən kənara çıxa bilməz. 94-cü və 95-ci maddələr Milli Məclisə özünü buraxmaq və ya bunun üçün prezidentə müraciət etmək səlahiyyəti verməyib. Bu isə sözügedən qərarın qanunvericiliyin tələblərini pozduğunu göstərir.

Konstitusiya Məhkəməsi isə qərarında 98-1-ci maddənin I hissəsində nəzərdə tutulan "vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə" müddəasına istinad edib. Məhkəmə aradan qaldırıla bilməyən səbəblər dedikdə parlamentin mövcud tərkibdə vəzifələrinin icra edilməsini qeyri-mümkün edən səbəblər kimi başa düşüb və deputatların "islahatlarla ayaqlaşmamaq" arqumenti

---

8 http://xalqqazeti.com/az/news/35617

9 http://www.aztv.az/index.php/az/news/3298/yap-i-temsil-eden-deputatlar-parlamentin-buraxilmasi-ucun-milli-meclise-muraciet-edibler

10 http://www.e-qanun.az/framework/43740?fbclid=IwAR3u4oPMQlmei-rxxTmfhWl49t9zFfdAUxGNtLi37vXln-BU5Ipj0QeiwXU8

11 https://www.apa.tv/xeberler/prezident-konstitusiya-mehkemesine-sorgu-gonderdi-52861

12 http://www.constcourt.gov.az/details/917

13 https://president.az/articles/35112

14 https://www.faktyoxla.info/2019/12/09/parlamentin-buraxilmasi-proseduru-konstitusiyaya-ziddir/

əsasında parlamentin buraxılması və yeni seçkilərin keçirilməsini istəməsini onların qəti mövqeyi kimi hesab edib. Bununla da, Konstitusiya Məhkəməsinə görə Milli Məclis öz səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini obyektiv qiymətləndirməklə öz işini davam etdirib-etdirməməsinin mümkünlüyünə dair qərar qəbul edə bilər.

Aydın görünür ki, Konstitusiya Məhkəməsinin istinad etdiyi "Obyektiv qiymətləndirmə" anlayışı, sadəcə, heç bir meyarı aydın olmayan ümumi mülahizədir. Həmçinin "parlamentin fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü" arqumentinin heç bir hüquqi əsaslandırması yoxdur. İndiyədək Milli Məclisin fəaliyyəti ilə bağlı hər hansı problemli vəziyyət qeydə alınmayıb. Buradan aydın olur ki, obyektiv qiymətləndirdikdə parlamentin fəaliyyətinə formal olaraq hər hansı nöqsan tutula bilməz. Bu halda deputatların öz fəaliyyətlərindən narazılığının ən obyektiv göstəricisi onların vəzifələrindən istefa verməyi olardı ki, bu da parlamentin buraxılması üçün əsas yarada bilərdi. Bu isə prezidentin parlamenti buraxmasını zəruri edərdi. Amma deputatlar istefa yox, parlamentin adından buraxılma xahişi ilə prezidentə müraciət ediblər. Bu da Konstitusiya Məhkəməsinin əsaslandırmasının doğru olmadığını göstərir.

Bununla yanaşı Məhkəmə "fəaliyyətini mümkünsüz" hesab etdiyi Milli Məclisin yeni çağırışı fəaliyyətə başlayanadək müstəsna olaraq Konstitusiyanın 111-ci və 112-ci maddələrində, 95-ci maddəsinin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərin, habelə beynəlxalq təşkilatlarda təmsilçilik funksiyalarının həyata keçirilməsi üçün müvafiq səlahiyyətlərinin saxlanılmasını zəruri hesab edib.

Beləliklə, Konstitusiya Məhkəməsi öz qərarını hüquqi arqumentlərlə deyil, siyasi mülahizələrlə əsaslandırıb və bununla da siyasi hakimiyyətin təsir dairəsindən kənar fəaliyyət göstərə bilmədiyini bir daha təsdiq etmiş olub.

Nəticədə IDI hesab edir ki, parlamentin buraxılması ilə bağlı qərar nə mövcud Konstitusiyanın tələbləri çərçivəsində verilib, nə də bu qərar verilərkən (demokratik təcrübənin tətbiqi baxımdan) beynəlxalq qurumların çağırışları nəzərə alınıb.

## IV. SEÇKİQABAĞI VƏZİYYƏT

### A. SİYASİ KONTEKST

Prezidentli respublika olan Azərbaycanda hakimiyyətin üç əsas qolu var: icraedici, qanunverici və məhkəmə hakimiyyətləri (məhkəmə hakimiyyətindən başqa digər hakimiyyət orqanları seckili orqanlardır). Azərbaycanda onsuz da geniş səlahiyyətlərə malik prezident idarəetmə sistemi 2016-cı ildə keçirilən referendumundan sonra həddindən artıq güclənib. Prezidentin çoxsaylı səlahiyyətlərinə, birbaşa özünə tabe 1-ci Vitse-prezidenti və məhdudiyyətsiz sayda vitse-prezidentləri, Baş naziri, nazirləri, mərkəzi və regional səviyyədə bütün icra strukturlarının rəhbərlərini təyin etmək; Konstitusiya Məhkəməsi də daxil bütün instansiya məhkəmələrinin hakimlərini və həmçinin Baş Prokurorun namizədliyini parlamentə təqdim etmək; Parlamenti buraxmaq və yeni növbədənkənar parlament seçkisi təyin etmək daxildir.

Parlamentdə təmsil olunan 12 partiyadan biri olan hakim Yeni Azərbaycan Partiyasının (YAP) rəhbəri hazırkı dövlət başçısıdır və o 4-cü müddətə, lakin bu dəfə 7 illik dövrü əhatə edəcək səlahiyyəti əldə

edib. Bu partiya 125 yerlik ölkə parlamentində 74 deputatla (sonradan 6 yer boşalıb) çoxluq təşkil edir. Parlamentdə təmsil olunan sayca ikinci böyük qrup 39 bitərəf deputatdan (sonradan 4 yer boşalıb) ibarətdir. Bu qrup daim səsvermədə hakim partiyanın (Prezidentin) tərəfində çıxış edir. Qalan 12 yeri on bir siyasi (hakimiyyətə loyal) partiya tutur. Müxalif siyasi partiyalar olan Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) və Müsavat Partiyası 2010-cu il seçkilərindən etibarən parlamentdə təmsil olunmurlar. 2009-cu ildə yaradılmış müxalif Respublikaçı Alternativ (ReAl)[15] Hərəkatı 09 aprel 2018-ci ildə partiyaya çevrilsə də[16] rəsmi qeydiyyata alınmayıb.

Parlament seçkilərinin növbədənkənar təyin olunması siyasi partiyaları, seçkidə iştirak əzmində olan bütün maraqlı tərəfləri hazırlıqsız yaxalayıb. Gözlənilmədən növbədənkənar seçkilərin təyini, eyni zamanda onun yerli və beynəlxalq müşahidə işini də çətin vəziyyətə salıb. Mövcud vəziyyətdə əsas alternativ siyasi qüvvələrin seçkidə iştirakla bağlı qərarları müxtəlif olub. Ölkənin əsas müxalif siyasi qüvvələrindən Demokratik Qüvvələrin Milli Şurası (o cümlədən AXCP) seçkidə iştirakdan imtina edib, digər iki partiya, Müsavat Partiyası və ReAl partiyası seçkidə iştirak haqda qərar verib. Ancaq hər üç siyasi təşkilat seçki qanunvericiliyinin beynəlxalq standartlara uyğun olmadığı, həmçinin ölkədəki siyasi mühitin ədalətli seçkilər üçün təminat vermədiyində həmfikirdir[17]. Bundan başqa digər siyasi partiyalar [18]və ictimai-siyasi fiqurlar[19]da seçkidə aktiv iştiraka qərar veriblər.

Ümumilikdə isə 2013-cü ildən etibarən Azərbaycanda siyasi hüquqlar və fəaliyyət mühiti daha da məhdudlaşdırılıb. Bu dövrdən etibarən, vətəndaş cəmiyyəti institutları, müstəqil media və müxalif təşkilatlar təzyiq siyasətinin hədəfinə çevrilib. Bununla əlaqədar tanınmış hüquq müdafiəçiləri, ekspertlər və ictimai şəxslərin daxil olduğu Siyasi Məhbusların Siyahısı üzrə İşçi Qrup siyasi məhbus siyahısını hazırlayaraq ictimaiyyətə təqdim edib. Siyahı Avropa Şurası Parlament Assambleyasının (AŞPA) oktyabr 2012-ci il tarixli 1900 saylı Qətnaməsində təsbit edilmiş kriteriyalar əsasında müəyyən edilib. Sonradan Siyahıya salınmış şəxslərin bir qismi əfv fərmanları və məhkəmə qərarları ilə azadlığa buraxılsalar da, yeni həbslər hesabına siyasi məhbusların dairəsi daha da genişlənib. Siyasi Məhbusların Vahid Siyahısı üzrə İşçi Qrupun yaydığı son hesabatda siyasi məhbusların sayı 112-dir.[20]

Avropa Şurası Parlament Assambleyası (AŞPA) Hüquqi Məsələlər və İnsan Haqları Komitəsi də Azərbaycanda sistematik siyasi məhbus problemi olduğunu ifadə edib. Bu qənaət AİHM-in gəldiyi faktiki nəticələrə söykənir. [21]

Əsas müşahidə olunan problemlərdən biri də odur ki, barələrində cinayət işi qaldırılmış və hökm çıxarılmış ictimai-siyasi fiqurların və fəalların ittiham olunduqları maddələr ağır cinayətlər kateqoriyasına daxil olduğundan, həmin şəxslər indi və məhkumluqları üzərlərindən götürülməyəcəyi təqdirdə gələcəkdə də seçkilərdə namizəd kimi iştirak edə bilməyəcəklər. Belə ki, Konstitusiyanın 85

---

15 https://www.realpartiya.org/who-we-are

16 https://modern.az/az/news/161818

17 http://basta2.com/az/2019/12/03/muxalif%C9%99td%C9%99-secki-muzakir%C9%99si-istirak-yoxsa-boykot-video/

18 https://modern.az/az/news/221360

19 https://qafqazinfo.az/news/detail/azerbaycanda-yeni-secki-bloku-yaradildi-273250

20 https://www.amerikaninsesi.org/a/siyasi-məhbusların-yeni-siyahısı---112-nəfər-/5179924.html

21 https://www.coe.int/en/web/baku/-/pace-committee-finds-azerbaijan-has-a-systemic-problem-of-political-prisoners-urges-reform-and-review-of-reported-cases

və 100-cü maddələrinə əsasən, ağır cinayətlərə görə məhkum edilmiş şəxslər Milli Məclisinin deputatı və Prezident seçilə bilməzlər. İndiki durumda da barələrində AİHM-in qərarlarına və AŞ Nazirlər Komitəsinin 5 dekabr tarixli qərarına[22] baxmayaraq, seçkidə potensial namizəd olan keçmiş siyasi məhbusların üzərində məhkumluğun qalması səbəbilə seçkidə iştiraklarına əngəl öz qüvvəsini saxlayır.

Bu parlament seçkiləri də Ermənistanla Azərbaycan arasında davam etməkdə olan Qarabağ münaqişəsi və Azərbaycan ərazisinin 15%-ə yaxın hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir şəraitdə həyata keçirilir. Bu vəziyyət həmin ərazilər üzrə seçkilərin keçirilməsini, xüsusilə də, çox saylı məcburi köçkünlər üçün səsvermənin təşkilini çətinləşdirir. İşğal faktı, eyni zamanda Dağlıq Qarabağın erməni əhalisinin seçkilərdə iştirakına şərait yaratmağa imkan vermir.

Beləliklə 2020-ci ilin fevral ayının 9-na təyin olunan növbədənkənar parlament seçkiləri də hakim partiyanın inzibati resursları mütləq istifadə etdiyi, real siyasi qüvvələr (iqtidar-müxalifət) arasında siyasi dialoqun yoxluğunun diktə etdiyi, əlverişsiz siyasi mühitdə baş verir.

## B. SƏRBƏST TOPLAŞMA

### 1. HÜQUQİ ÇƏRÇİVƏ

Sərbəst toplaşmaq azadlığını tənzimləyən Konstitusiya norması ilk mətndə qənaətbəxş olsa da, 2016-cı il referendumu ilə 49-cu maddədəki azadlığın istifadəsi şərtə bağlanmış və ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə toplaşma azadlığının mövcudluğu göstərilib.

13 noyabr 1998-ci ildə qəbul edilən "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanun isə ölkə Konstitusiyası və digər qanunvericilik aktları, o cümlədən ölkəmizin qoşulduğu Avropa Konvensiyasının birləşmək azadlığına təminat verən 11-ci maddəsinin tələbləri ilə ziddiyyət təşkil edir. Təsadüfi deyil ki, AİHM sərbəst toplaşma azadlığının pozuntusu ilə bağlı Azərbaycana qarşı çıxardığı qərarlarda bu hüquqa müdaxilənin qanunsuzluğunu, qeyri-legitimliyini və demoktratik cəmiyyətdə zərurilik tələbinə cavab vermədiyini tanıyıb.[23][24][25] Buna baxmayaraq, həmin qərarların qanunvericilikdə və onun tətbiqi praktikasında icrası ilə bağlı hökumət hər hansı proqressiv addımlar atmayıb.

***Sərbəst toplaşma hüququna görə müəyyən olunan inzibati cəza***

Sərbəst toplaşma hüququndan istifadə imkanları məhdudlaşdırılmaqla bərabər, bu hüququndan istifadə etmək istəyənlərin qarşısına ağır cəzalar gətirilib. Təkcə bir faktı qeyd edək: İnzibati Xətalar Məcəlləsində (İXM) 2012-ci ildə qanunsuz toplantıya görə cərimənin maksimum həddi 13 manat olduğu halda, 2016-cı ildən bu miqdar 30 min manata qədər yüksəldilib. Başqa sözlə, maddənin sanksiyası 2307 dəfə artırılıb. Ayrıca, 240 saatadək ictimai işlər və ya iki ayadək müddətə inzibati həbs cəzası da maddənin sanksiyasına əlavə edilib.

---

22 https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=090000168098f832&fbclid=IwAR1ueL6H-F4Qqiz8nNjybTAJ7-OD14Ao7v2HaDgGYytgWvf94Ff3ogEAbUTM
23 http://hudoc.echr.coe.int/eng?i=001-157705
24 http://hudoc.echr.coe.int/eng?i=001-160429
25 http://hudoc.echr.coe.int/eng?i=001-160430

1 mart 2016-cı ildə İXM-in 513-cü maddəsinə edilən dəyişikliyə əsasən toplantıların keçirilmə qaydasının pozuntusunun cinayət məsuliyyəti yarada biləcəyi də vurğulanır.

Cinayət Məcəlləsinin 169-cu maddəsi toplantı azadlığından sui-istifadəyə görə, cinayət məsuliyyəti də nəzərdə tutur. Belə ki, "qanunvericiliklə qadağan olunmuş hallarda toplantılar təşkil etmə, keçirmə və ya belə toplantılarda iştirak etmə vətəndaşların hüquq və qanuni mənafelərinin əhəmiyyətli pozulmasına səbəb olduqda" cinayət cəzası nəzərdə tutulur. Əhəmiyyətli pozulmanın nə olduğuna aydınlıq gətirilmədiyi halda, maddənin sanksiyasında 2 ilədək həbs cəzası nəzərdə tutulur. 2017-ci ilin oktyabr ayında sanksiyaların dairəsinə 2 ilədək azadlığın məhdudlaşdırılması da əlavə edilib.

## 2. SƏRBƏST TOPLAŞMA MÜHİTİ

Ölkə miqyasında sərbəst toplaşmaq azadlığı məhdudlaşdırılıb, əvvəllər yalnız Bakı şəhərində yarımqapalı "Məhsul" stadionunda müxalif partiyaların bəzən mitinqlər keçirməsinə imkan verilirdisə, 19 yanvar 2019-cu il Milli Şuranın razılaşdırılmış mitinqindən[26] sonra Məhsul stadionu da siyasi tərəflərin üzünə bağlanıb. Son yer olaraq, şəhərdən xeyli uzaqda, yalnız Lökbatan qəsəbəsində[27] qəsəbə stadionunda mitinq keçirilməsinin mümkünlüyü bildirilib.

İcazəli mitinq keçirilən zaman da mitinq iştirakçılarının şəxsiyyəti kameralarla və mobil operatorların qanunsuz ötürdükləri siqnal məlumatları ilə identifikasiya edilib, daha sonra polis orqanları tərəfindən[28] həmin şəxslərin şəxsiyyəti müəyyən edilərək onlara zəng edilib[29], müxtəlif basqılar edilib[30].

Haha sonra siyasi qüvvələrin, (Milli Şura, Müsavat Partiyası, Qarabağ Komitəsi) mitinq, yürüş keçirmək müraciətlərini Bakı Şəhər İcra Hakimiyyəti əsaslandırılmamış imtina məktubları ilə cavablandırıb.[31].

Sərbəst toplaşmaq hüququnun sistemli pozulmasından sonra Milli Şuranın rəsmi olaraq razılaşdırdığı 8 oktyabr 2019-cu il piketi[32] və razılaşdırımamış 19 oktyabr 2019-cu ildəki mitinq cəhdi polis zorakılığı nəticəsində dağıdılıb, çox sayda şəxs saxlanılıb, bəziləri inzibati həbsə məhkum edilib. AXCP sədri Əli Kərimli və Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Tofiq Yaqublu fiziki işgəncəyə məruz qalıb.[33]

20 oktyabr 2019-cu ildə ictimai fəallar qadınlara qarşı zorakılığa etiraz olaraq yürüş etməyə cəhd edib. Yürüş zamanı polis və mülki geyimli şəxslər iştirakçılara qarşı zor tətbiq ediblər.[34] 7 noyabr 2019-cu ildə piket keçirmək istəyən Müsavat Partiyasına qarşı zorakılıq göstərilib, partiya sədri də daxil olmaqla çoxsaylı üzvlər qanunsuz saxlanılıb.[35]

---

26 https://www.bbc.com/azeri/azerbaijan-46931208

27 http://qaynarinfo.az/az/bsih-milli-suranin-lkbatanda-mitinq-kecirmesine-icaze-verdi/

28 https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/mitinq-istirakcilarina-polisden-gelen-zeng/

29 https://www.bbc.com/azeri/international-46972971

30 https://musavat.com/news/mitinq-istirakcilarina-qarsi-total-tezyiqler-baslayib-musavat-partiyasi_586826.html

31 https://novator.az/2019/02/27/mitinqə-yenə-icazə-verilmədi/

32 http://toplum.tv/az/milli-suranin-piketinde-30-a-yaxin-sexs-saxlanilib-video/#.XgCcNC2B00o

33 https://www.bbc.com/azeri/azerbaijan-50081561

34 http://toplum.tv/az/dzme-yurus-et-zorakiliq-anlari-video/#.XgCbSS2B00o

35 http://toplum.tv/az/musavatin-piketinde-neler-bas-verdi-video/#.XgCxjS3BJQI

Müxalif siyasi partiyaların və müstəqil QHT-lərin əksəriyyətinin ofisləri yoxdur, regionlarda fəaliyyətləri ciddi maneələrlə üzləşir. Həmçinin bu cür qurumların qapalı məkanlarda konfrans, dəyirmi masa və s. formatlarda ictimai toplantılar keçirməsi demək olar ki, mümkünsüz hala gəlib.

Seçkiöncəsi dövrdə ictimai qurumlar da sərbəst toplaşma azadlığının vəziyyətinə dair bir sıra tətqiqatlar aparıblar. Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) siyasi motivli inzibati həbslərlə bağlı dəyərləndirmə sənədi hazırlayıb.[36]

Həmçinin IDI 2016-2019-cu illəri əhadə edən sərbəst toplaşmaq azadlığının vəziyyəti ilə bağlı araşdırma[37] və inzibati həbslərlə bağlı qanunvericiliyin analizi və praktiki vəziyyətə dair araşıdma[38] aparıb və müvafiq sənədlər yayıb.

Bir sözlə, növbədənkənar parlament seçkiləri sərbəst toplaşmaq hüququnun ciddi məhdudlaşdırıldığı bir zamanda keçirilməkdədir.

## C. VƏTƏNDAŞ CƏMİYYƏTİ

Azərbaycanda vətəndaş cəmiyyətinin hüquqi mühitində əsas tənzimləyici normalar “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında”, “Qrant haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunlar, İnzibati Xətalar Məcəlləsi və s sənədlərdir. 2013-2014-cü illərdə onlara edilmiş məhdudlaşdırıcı əlavə və dəyişikliklər hələ də qüvvədədir. Onların əksəriyyəti birləşmək azadlığını tamamilə icazə sisteminə bağlayan dəyişikliklərdir. Bu dəyişikliklərə əsasən, qrantların və donorların qeydiyyatı zəruriliyi yaradılmış, bundan sonra xarici donorların qrant vermə hüququnu əldə etməsi və qrantların qeydiyyatı qaydaları Nazirlər Kabineti tərəfindən təsdiq edilib. Həmin Qaydalar bir pəncərə sisteminin tətbiq edilməsinə dair 2016-cı ildə verilmiş Prezident Sərəncamı əsasında hazırlanıb. Lakin Qaydalar hüquqi qüvvəsinə görə qanundan aşağıda dayandığı üçün yuxarıda sadalanan məhdudlaşdırıcı normaların ləğv edilməməsi səbəbindən mühitdə müsbətə doğru dəyişikliklərə gətirib çıxarmayıb.[39]

Beləliklə, bu qadağalar faktiki olaraq müstəqil vətəndaş cəmiyyətinin maliyyə resurslarına çıxışını yasaqlamaqla, seçkilərin monitorinqi sahəsində ixtisaslaşmış müstəqil QHT-ləri bu prosesin şəffaflığına nəzarət funksiyasını həyata keçirmək imkanından məhrum edib.

Həmçinin keçən dövr ərzində vətəndaş cəmiyyəti təşkilatlarının müstəqil fəaliyyəti iflic edilib və onların gələcək fəaliyyət imkanları qeyri-müəyyən vəziyyətə salınıb. QHT-lərə qarşı 2014-cü ildə açılmış cinayət işi hələ də açıq saxlanılır. Tanınmış vətəndaş cəmiyyəti təmsilçilərinin ölkədən çıxışına qadağa[40] və sərhəd keçid mənətəqələrində əsassız yoxlamalar hələ də davam edir.

---

36 https://smdtaz.org/az/siyasi-motivli-inzibati-həbslər-2/

37 http://idi-aze.org/en/policy-paper-on-the-situation-of-freedom-as-assembly/

38 http://idi-aze.org/en/policy-paper-on-the-analysis-of-the-legislation-regarding-administrative-detentions-and-on-the-status-of-ill-treatment/

39 http://toplum.tv/az/stp-qrantlarin-qeyde-alinmasi-ile-bali-sened-yaydi/#.XgE-0y2B00o

40 https://rm.coe.int/report-on-the-visit-to-azerbaijan-from-8-to-12-july-2019-by-dunja-mija/168098e108

Müstəqil QHT-lərin xarici donorlarla əməkdaşlığı faktiki qadağan edilib. Eyni zamanda, xarici donorlardan (Qərb mənşəli) demokratikləşməyə və vətəndaş cəmiyyətinin inkişafına çox mühüm dəstək verən təşkilatlar 2014-cü il təzyiqlərindən sonra ölkəni tərk ediblər.

## D. MEDİA

### 1. HÜQUQİ ÇƏRÇİVƏ

2015-ci il parlament seçkilərindən sonra ölkədə medianın hüquqi vəziyyətində məhdudlaşdırmalar daha da intensiv hal alıb. 2016-2019-cu illər arası qanunvericiliyə gətirilən dəyişiklik və əlavələrin mahiyyəti azadlıqların daha da çərçivələnməsi olub.
2016-cı ildə Cinayət Məcəlləsinə sosial mediada anonim hesablarla böhtan və təhqiri cinayət əməli hesab edən, yeni 148-1 ci maddə əlavə edilib.[41] Maddənin özəlliyi odur ki, digər diffarmativ idddiaların xüsusi ittiham qaydasında mənafeyi olan şəxs tərəfindən qaldırılması nəzərdə tutularkən, bu maddədə birbaşa prokurorluq tərəfindən iddia qaldırılması nəzərdə tutulur.

2017-ci ilin fevral ayında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna bir fəsil əlavə edilib. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə məhkəmə qərarı olmadan İnternet resurslarını bağlamaq, bloklamaq hüququ verilib. Bu əlavələr hüquqi münasibətlərdən kənara çıxan, legitim mənafelərə cavab verməyən, media azadlığının üstünlüyü prinsipini aradan qaldıran müddəalardır. Dəyişiklikdən dərhal sonra, tənqidi mövqeyi ilə seçilən və cəmiyyəti alternativ mənbə kimi məlumatlandıran resurslara-www.azadlıg.org, www.azadlıq.info, www.azerbaycansaatı.com, www.turan.tv və www.meydan.tv saytlarına giriş bloklanıb və məhkəmə öz qərarı ilə bu bloklamanı dəstəkləyib.[42] Hazırda məhkəmə qərarı olmadan məhdudlaşdırılan resursların sayı 40-dan çoxdur.

2017-ci il fevralın 14-də "Hərbi vəziyyət haqqında"[43] qanun qəbul edilib. 1998-ci ildən rəsmi senzuranın ləğvindən sonra ilk dəfə mətbuata senzuranın tətbiqinə dair müddəalar yenidən qanunvericiliyə qaytarılıb. 2018-ci il may ayında "Kütləvi informasiya vasitələri" haqqında Qanunun[44] 7-ci maddəsinə də senzuranın mümkünlüyünü göstərən müddəa daxil edilib. 1 may 2018-ci il tarixli "Teleradio yayımı haqqında" Qanuna da eyni mahiyyətdə əlavə edilərək senzuranın mümkünlüyü bu qanuna da daxil edilib. Halbuki, Konstitusiyanın[45] 50-ci maddəsi Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasını qadağan edir. "Hərbi vəziyyət haqqında" qanunda senzuranın nəzərdə tutulması konstitusiyanın kobud şəkildə pozulmasıdır.

2017-ci ilin may ayında Milli Məclis jurnalistlərin əsas hüquqi münasibətlərini tənzimləyən "Kütləvi informasiya vasitələri haqqında" qanuna daha bir məhdudlaşdırıcı əlavə edib. 3-cü maddədə, anlayışlar qismində internet informasiya resursları da mətbuat halqasına əlavə edildi, sui-istifadə hallarının çevrəsi genişləndirilib. Aydın ifadə edilən və yayılmasına yol verilməyən şəxsi həyat sirləri, qanunla

[41] http://e-qanun.az/framework/34571
[42] https://www.bbc.com/azeri/azerbaijan-39748497
[43] http://www.e-qanun.az/framework/35170
[44] http://www.e-qanun.az/framework/39325
[45] http://www.e-qanun.az/framework/897

qorunan sirlər hissəsinə qeyri-müəyyən və nə olduğu bilinməyən “yayılması qadağan edilən digər informasiya” da əlavə olunaraq qanunvericiliyə bulanıq tənzimləmə gətirilib.

## 2. MEDİA MÜHİTİ

Seçkiöncəsi meda mühitində əvvəllər də mövcud olan ağır vəziyyət davam edir, hər hansı pozitiv dəyişim baş verməyib. Ölkədə media qurumlarının fərqli tərəflərə bağlılığı davam edir. Medianın əsas elektron hissəsi, o cümlədən dövlət yayımçısı tamamilə büdcədən maliyyələşir. AZTV qapalı səhmdar cəmiyyəti üç fərqli TV-də yayılır. İctimai yayım da tam dövlət büdcəsindən aslıdır. Müstəqil yayımçı kimi xarakterizə edilən yayımçıların da təsisçiləri əvvəllər məlum olan açıq mənbələrdə göstərilib ki, hökumətin üst ranqlı siyasətçilərinin yaxınları və qohumlarıdır.

Ölkədə müstəqil çap mediyasının tamamilə sıradan çıxarılmasına baxmayaraq, azsaylı da olsa online müstəqil medialar mövcuddur. Ancaq bu cür mediada çalışan jurnalistlərə qarşı təzyiqlər müxtəlif formalarda ardıcıl olaraq davam edir.

2017-ci ildən etibarən ən çox istifadə edilən metodlardan biri jurnalistlərin yaydıqları məlumatlara görə Baş Prokurorluğa çağrılaraq onlara psixoloji təzyiqlərin edilməsi və sonra da öhdəlik imzaladılmasıdır. Bir daha informasiyaların yayılması halında cinayət məsuliyyətinə cəlb ediləcəkləri ilə hədələnmələr çox artıb.[46]

Son bir ildə tənqidi fəaliyyət göstərən jurnalistlərə qarşı basqılar, həbslər davam edib. Vahid Siyasi Məhbus Siyahısının hazırlanması üzrə İşçi Qrup siyasi məhbus kimi tanıdığı 112 nəfərin içində 5 jurnalist və blogerin adını qeyd edib. Bir jurnalistin işini isə monitorinq altına alıb.[47]

Məhkəmə qərarı ilə isə 3 jurnalist- "bastainfo.com" saytının baş redaktoru Mustafa Hacıbəyli, “www.criminal.az” saytının baş redaktoru Anar Məmmədov, teref.info saytının redaktoru Nürəddin İsmayılov 5 il 6 ay müddətinə şərti olaraq azadlıqdan məhrum ediliblər.[48] “Bakupress” agentliyinin rəhbəri Şəfəq Ağacan narkotik ticarəti ittihamı ilə həbs edilib[49]. realliq.info saytının rəhbəri İkram Rəhimov[50] və “xeberman.com” və “press-az.com” saytlarının baş redaktoru Polad Aslanov[51] da müxtəlif ittihamlar adı ilə həbs edilib.

Bu basqılar, hətta sosial mediada fikirlərini yayanlara da tətbiq edilir, cinayət işləri açılır, təqibə məruz qalırlar.[52]

Jurnalistlər, təəssüf ki, əsas informasiyaları heç də həmişə işıqlandıra bilmirlər. Sorğularla informasiya almaq çətinləşir. Xüsusilə informasiya sorğusu göndərən şəxslərə telefon əlaqəsi yaradılaraq, təzyiq edilir, nədən informasiya istədikləri, kimə işlədikləri və s. qanunla yolverilməyən suallar yönəldilir.

---

46 http://toplum.tv/az/xeberdarlia-imza-atmaqdan-imtina-etdim-evez-zeynalli/?fbclid=IwAR07TvfUI9lDdgZ44DU85e-IC5k_lE6d48luJD6JdAJSK9WLYc7JAFl0YaL4#.XgHo0S2B00p

47 https://smdtaz.org/az/vahid-siyasi-məhbus-siyahisi-uzrə-isci-qrupun-yenilənmis-novbəti-siyahisi-təqdim-edilib-3/

48 https://www.mia.az/w696507/details

49 https://sputnik.az/incidents/20190502/420261392/jurnalist-hebs-edildi.html?fbclid=IwAR2_dS-8VD2gfhJUle-M37u0Ym41zCYGZINT2FN276GAbmtejrDMc2PyVOcU

50 https://www.turan.az/ext/news/2019/8/free/Social/az/82912.htm

51 https://www.amerikaninsesi.org/a/məhkəmə-baş-redaktor-barədə-dörd-ay-həbs-qətimkan-tədbiri-seçib-/4960387.html

52 http://toplum.tv/az/nermin-sahmarzadeye-hkm-oxundu/?fbclid=IwAR3_nwCa-liSYvZ7BXPAdOQTHazN_MlkH5Gna-oZLmC0Na98xUw8UUaYLZHg#.XgHmJy2B00p

Qanunvericilik nəzarət funksiyasını ona verməsinə baxmayaraq,  informasiya açıqlığına nəzarət edən qurum olan Ombudsman bu sektorda faktiki heç bir iş görmür.

## E. MƏHKƏMƏ MÜDAFİƏSİ

### 1. MƏHKƏMƏNİN VƏZİYYƏTİ

Keçən dövr ərzində məhkəmələrin müstəqilliyi ciddi problem olaraq qalmaqdadır. 2015-ci il seçkilərində baş verən  pozuntulara dair verilən şikayətlərlə bağlı məhkəmə qərarları birmənalı MSK-nın qərarlarını təsdiq etməkdən ibarət olub. Halbuki AİHM-ə gedən və seçki pozuntusu olduğu aşkarlanan şikayətlərin hər biri bütün daxili məhkəmə instansiyalarından keçib, lakin heç bir instansiya bu pozuntuları tanımayıb.

Keçən 5 ildə yaxın aralıqlarla əfv sərəncamlarının[53] (2019, 2018[54], 2017[55]\[56], 2016[57], 2015[58]) imzalanması və mindən çox məhkumun, o cümlədən onlarla siyasi məhbus və ya vicdan məhbusunun azad edilməsinə baxmayaraq, yenə də  siyasi məhbusların sayında ciddi azalma baş vermir. Çünki siyasi motivli həbslər hələ də intensiv olaraq davam edir. Son məlumatlara görə, müxtəlif insan hüquqları müşahidə qruplarının müəyyən etdiyi siyasi məhbus sayı 112 nəfərdir.[59]

Bunun başlıca səbəbi, ədalətli məhkəmə sistemi probleminin aktuallığının qalmasıdır. Keçən dövrdə də bir qayda olaraq ictimai çıxışlarında sərt tənqidi fikirlərinə, korrupsiya araşdırmalarına, insan hüquqları müdafiəsi fəaliyyətinə, ciddi tənqidi fikirlərini sosial şəbəkələrdə paylaşdığına görə və s. səbəblərdən həbslər mövcuddur və davam etdirilir.

Məhkəmələrin son illər ən çox pozuntuya yol verdiyi məsələlərdən biri də inzibati həbslərin siyasi təqib vasitəsi kimi istifadə edilməsində alətə çevrilmələridir. Aktivistlərin bəzən evlərindən, bəzən küçədən oğurlanaraq "yox" olması, daha sonra hansısa məhkəmə qərarı ilə qondarma ittihamla inzibati həbsə göndərilməsi adi hal alıb. Xüsusilə, müxalif siyasi partiyaların mitinq elan etdiyi ərəfədə bu olaylar daha sıx müşahidə edilir. 2018-ci ildə 78 siyasi motivli inzibati həbs olub.  IDI-nin 2019-cu il avqust ayında hazırladığı hesabatda  bu faktlar geniş şəkildə əksini tapıb.[60]

İnzibati qərarların mübahisələndirilməsində, dövlət qurumlarının və vəzifəli şəxslərin qanunsuz hərəkətlərinin mübahisələndirilməsində məhkəmələr demək olar ki, həmişə tərəf tutmaqda, bu tip iddiaları obyektiv araşdırmadan rədd etməkdə, yaxud iddiaları qəbul etməməkdədir. 2014-2018 ci ildə xüsusilə QHT-lərə, onların rəhbər və işçilərinə, jurnalistlərə qarşı atılan hüquqazidd əməllər, bank hesablarına həbs qoyulması, ofislərdə texnika və sənədlərin götürülməsi əməllərinə dair bütün

53 http://www.e-qanun.az/framework/41731
54 http://www.e-qanun.az/framework/38989
55 http://www.e-qanun.az/framework/35069
56 http://www.e-qanun.az/framework/36450
57 http://www.e-qanun.az/framework/32380
58 http://www.e-qanun.az/framework/31739
59 https://www.amerikaninsesi.org/a/siyasi-məhbusların-yeni-siyahısı---112-nəfər-/5179924.html
60 https://idi-aze.org/az/2018-ci-ilde-azerbaycanda-bas-veren-inzibati-hebslerin-ve-pis-reftarn-statistikas/

məhkəmə işlərində bir qayda olaraq qərarlar inzibati orqanların lehinə olmuş, hətta bir çox halda hüquqları pozulan tərəfin şikayət vermə hüququ da tanınmamışdır.[61]

Məhkəmələr hakimiyyətin üçüncü müstəqil qolu və ədalətin bərpası institutu olmaqdan çıxaraq icra hakimiyyətindən tam asılı vəziyyətə düşüb. Məhkəmə-hüquq sistemindəki problemlər 3 aprel 2019-cu il tarixdə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Prezidentinin Fərmanında[62] da ifadə edilib. Maraqlıdır ki, bundan 6 il öncə 13 fevral 2014-cü ildə Prezidentin imzaladığı 268 saylı məhkəmə islahatı kimi təqdim edilən bir başqa Fərmanda da buna bənzər ifadələr işlədilmiş, məhkəmə islahatının zəruriliyi vurğulanmışdı.[63] Aradan 6 il keçməsinə baxmayaraq, məhkəmələrin müstəqilliyi üçün hər hansı tədbir görülməyib. Pezidentin son fərmanınından isə 8 ay keçməsinə baxmayaraq, hər hansı addım atılmayıb. Bu da onu göstərir ki, islahat adı altında atılan addımlar, əslində, deklorativ xarakter daşıyır və məhkəmələrin müstəqilliyinin təmin edilməsi yönündə irəliləyiş baş verməyib.

## 2. VƏKİLLİK İNSTİTUTU

Ölkədə ədalətli mühakimə hüququnun istifadəsi üçün zəruri olan keyfiyyətli hüquqi yardım almaq imkanları maksimum daraldılıb. Uzun illərdir  ki, vəkillik institutu Vəkillər Kollegiyası vasitəsilə hökümətin nəzarəti altında saxlanılır. Ölkədə 10 min nəfərə təxminən 1,5 vəkil düşür. Bu Avropa Şurasına üzv ölkələr arasında ən pis nəticədir. Avropa Şurası İnsan Hüquqları komissarı Dunya Myatoviçin son hesabatında Azərbaycanda kəskin vəkil çatışmazlığının yaşandığı, bunun özəlliklə paytaxtdan kənarda hiss olunduğunu qeyd edir. Komissar bəzi vəkillərin Kollegiyadan uzaqlaşdırılmasına diqqət çəkib, onların əsasən siyasi baxımdan həssas hesab olunan işlərə çıxdıqlarını bildirib. "Komissar Vəkillər Kollegiyasını vəkillərə qarşı şikayətlərin şəffaf və ədalətli ararşdırılması üçün prosedur qaydaları möhkəmləndirməyə çağırıb və qeyd edib ki, vəkillərin ictimai maraq doğuran işlər üzrə öz fikirlərini ifadə etmək hüququ var və onların azadlığı təmin olunmalıdır".[64]

Hesabatda da vurğulandığı kimi, siyasi işlərə çıxan vəkillər müxtəlif təzyiqlərə məruz qalır, təqib edilir, qanunsuz olaraq vəkil statusundan məhrum edilirlər. Son bir ildə də qanunsuz olaraq Vəkillər Kollegiyasının üzvlüyündən çıxarılma, həmçinin vəkillərin intizam icraatına məruz qoyulması davam edib.[65]

Bundan başqa fərdi vəkilliklə məşğul olan 18 vəkilin qanunvericiliyə zidd olaraq, hüquq məntəqələrinə təhkim edilməsi halları müşahidə edilir ki, bununla da onların müstəqilliyinə müdaxilə baş verir.[66]

2018-ci ilin əvvəlindən nümayəndəlik institutunun ləğvi də toplumu və xüsusilə də onun həssas təbəqələrini faktiki olaraq müdafiəsiz qoyub. Bu durum həmçinin seçki şikayətlərinin müdafiəsinə də

61 https://news.milli.az/crime/286304.html
62 http://www.e-qanun.az/framework/41813
63 http://turan.az/ext/news/2019/4/free/analytics/az/120608.htm
64 https://www.coe.int/en/web/commissioner/-/commissioner-mijatovic-urges-the-azerbaijani-authorities-to-respect-freedom-of-expression-improve-access-to-lawyers-and-uphold-the-rights-of-internall
65 https://humanrightshouse.org/letters-of-concern/azerbaijani-bar-association-must-halt-reprisals-against-human-rights-lawyers/?fbclid=IwAR04CgI7h78QPBQJnVQ8p3Itd0Lbz4ULhLCyeAqdORl7Jfa5SkGXp5LTgWY
66 https://www.faktyoxla.info/2019/08/06/anar-bagirov-intizam-pozuntusuna-yol-vermis-vəkillərin-fərdi-vəkillik-fəaliyyətlərinin-ləgvi-qanuni-addimdir/

mənfi təsir edəcəkdir. Siyasi işlərə çıxan vəkillərin kollegiya üzvlüyü ləğv edildiyi indiki şəraitdə müxalif siyasətçilər seçki şikayətlərinin məhkəmələrdə hüquqi müdafiəsi zamanı vəkilsiz qalacaqlar.

## F. AİHM SEÇKİ QƏRARLARI VƏ ONLARIN İCRA VƏZİYYƏTİ

Avropa İnsan Hüquqları Məhkəməsinin yuridiksiyasını qəbul etdikdən sonra Azərbaycanda üç parlament seçkiləri keçirilib. 2015-ci il parlament seçkilərinin şikayətlərinə dair qərarlar hələ yekunlaşmasa da (qeyd: işlər baxılmaqdadır) 2005 və 2010-cu illərdə Azərbaycanda keçirilən parlament seçkiləri ilə bağlı 50-dən artıq ərizəçinin passiv seçki hüququnun pozulduğu AİHM-in toplam 23 qərarında öz əksini tapıb. Bu 47 Avropa Şurası ölkələri arasında  rekord nəticədir.

“Namət Əliyev və Fuad Qəhrəmanlı qrupları” başlığı altında birləşdirilən qərarlardan görünür ki, seçki komissiyalarının və onların qərarlarının mübahisələndirildiyi məhkəmələrin çıxardığı qərarlar Avropa Konvensiyasının tələblərinə cavab verməyib. Növbədənkənar parlament seçkilərini də məhz AİHM-nin qərarlarında təsdiqlənmiş pozuntulara yol verən komissiyalar eyni tərkibdə keçirəcək.

Avropa Məhkəməsinin “Namət Əliyev qrupu” na dair verdiyi qərarlarının icrasına nəzarət edən Avropa Şurası Nazirlər Komitəsi (AŞ NK) bu qərarın icra vəziyyətini 8 dəfə Komitənin iclasının müzakirəsinə çıxarıb. Komitə 2015-ci ilin dekabrında keçirilən iclasında bildirib ki, seçkiləri beynəlxalq standartlara uyğun hala gətirmək üçün islahatların keçirilməsi zəruri olsa da, Azərbaycan hökuməti hələ də tələb olunan islahatlara başlamayıb. Komitə bu səbəbdən hökumətin qısa zamanda seçki islahatlarına başlamasına çağırış edib[67].  Aradan keçən 4 ildə bu istiqamətdə heç bir addım atılmayıb. Hətta seçki huququnun pozulmasına dair verilən digər qərarlarda da sayılan çoxsaylı problemlərin heç birini doğuran səbəb və tənzimləyici normalarda dəyişiklik baş verməyib.

AŞ NK 2019-cu ilin 4-6 iyununda “Namət Əliyev qrupu” ilə bağlı qəbul etdiyi daha bir qərarda bildirib ki, AİHM-in son 10 ildə qəbul etdiyi silsilə qərarlara baxmayaraq seçki qanunvericiliyi və təcrübəsinin Konvensiyanın tələblərinə uyğunlaşdırılması üçün tələb olunan islahatlar keçirilməyib. Komitə AİHM tərəfindən tanınan ilk pozuntuların 2005-ci ildə baş verdiyini, bundan sonra daha 2 parlament seçkiləri keçirildiyini qeyd edib və bildirib ki, tələb olunan islahatlar keçirilməzsə 2020-ci ildə keçiriləcək seçkilər Konvensiyanın standartlarına cavab verməyən seçki sistemi ilə keçirilən 4-cü parlament seçkisi olacaq.

11 iyul 2019-cu ildə AİHM seçki hüquqlarının pozulmasına dair verdiyi daha bir qərarında bu məsləyə bir daha toxunaraq, seçki islahatının zəruriliyini, xüsusilə də seçki qanunvericiliyinin mövcud durumda hüquqları təmin etməyə yetərli olmadığını vurğulayıb. İxtiyar Abdalov və digərləri Azərbaycana qarşı[68] işinə baxan məhkəmə seçkilərdə namizədlərin qeydə alınmasından imtinanın qarşısını almaq üçün kifayət qədər təminat olmadığını bildirmiş, imza sayı və onun həqiqiliyi ilə bağlı verilən qərarların qərəzsizliyinə şübhənin qaldığını qeyd etmişdir. Məhkəmə, digər tərəfdən, komissiyaların qərəzsizliyi ilə bağlı narahatlıqların qaldığını bildirib. Seçki komissiyaları tərəfindən irəli sürülmüş namizədləri özbaşına qərarlardan qorumaq üçün hazırlanmış bir sıra qanuni təminatlara sistematik olaraq riayət edilməməsini sistematik pozuntular kimi göstərib. Oxşar tapıntıların bir sıra digər işlərdə təkrarlandığını bildirib.

---

67 https://hudoc.exec.coe.int/ENG#{“EXECIdentifier":["004-1773"]}
68 https://hudoc.echr.coe.int/eng#{“itemid":["001-194294"]}

AİHM-in *Abdalov və başqaları* işində xüsusilə diqqət yetirdiyi məqam seçkidə namizədin qeydə alınmasının gecikdirilməsi, nəticədə qısa olan seçki təbliğatı müddətinin effektiv və bərabər istifadə olunmasına imkan verilməməsidir: "*Hazırkı hallarda ərizəçilərin qeydiyyatı ilə bağlı gecikmələr kiçik deyildi. Müraciət edənlər seçki gününə o qədər gec qeydə alınıb ki, effektiv seçki kampaniyaları aparmaq üçün kifayət qədər vaxtı olmayıb".* Bu yanaşma bir daha Seçki Məcəlləsində son illər bir neçə dəfə seçki prosesinin müddətinin azaldılması istiqamətində gətirilən dəyişiklikləri müzakirəyə çıxarır və müddətlərin azaldılmasının azad və ədalətli seçki keçirilməsinə imkan vermədiyini göstərir.

## V. SEÇKİ SİSTEMİ VƏ HÜQUQİ ÇƏRÇİVƏ

### A. SEÇKİ SİSTEMİ

Tək palatalı parlament olan Milli Məclis beşillik müddət ərzində fəaliyyət göstərən 125 deputatdan ibarətdir. Deputatlar ***majoritar seçki sistemi*** üzrə birmandatlı seçki dairələrindən birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə seçilirlər. Seçkilərdə ən çox səs toplamış namizəd seçilmiş hesab edilir. Əgər seçki dairəsində heç bir namizəd qeydiyyata alınmayıbsa və ya yalnız bir namizəd qeydiyyata alınıbsa, o zaman həmin dairədə seçkilər təxirə salınır və proses təkrarlanır. Seçkilərin baş tutmuş hesab edilməsi üçün yetərsay tələb olunmur.

### B. HÜQUQİ ÇƏRÇİVƏ

2015-ci il parlament seçkilərinin keçiriləcəyi əsas qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyası (1995, son dəfə 2016-cı ildə dəyişikliklər edilib) və Seçki Məcəlləsindən (2003, son dəfə 2015-ci ildə dəyişikliklər edilib) ibarətdir. Seçkilər üçün hüquqi çərçivəyə "Sərbəst toplaşma azadlığı haqqında" Qanun, "Televiziya və radio yayımı haqqında" Qanun, "Kütləvi informasiya vasitələri haqqında" Qanun, Mülki Prosesual Məcəllə, Cinayət Məcəlləsi və İnzibati Xətalar Məcəlləsinin müvafiq müddəaları, habelə Mərkəzi Seçki Komissiyasının (MSK) normativ xarakterli aktları daxildir.

***Seçki Məcəlləsinə əlavə və dəyişikliklər***

AHİM və AŞ NK-nin çoxsaylı qərar və tövsiyələrinə, ATƏT/DTİHB və Venesiya Komissiyasının çağırış və tövsiyələrinə baxmayaraq 2015-ci il parlament seçkilərindən keçən 4 il ərzində bu Məcəlləyə fundamental hər hansı dəyişiklik və əlavə edilməyib. Yalnız 4 dəfə xırda redaktə xarakterli dəyişiklikər edilib.[69]
15 dekabr 2017-ci ildə edilən dəyişliklik əsasən redaktə xarakterli olmaqla bərabər, səsvermənin gizliliyini artırmaq və bülletenlərin zərflərə qoyularaq atılmasını nəzərdə tutan müddəaların Məcəllədən çıxarılması ilə yadda qalıb.
6 mart 2018-ci il tarixli dəyişiklik seçki prosedurlarına dair yox, komissiya üzvlərinin pensiya təminatına dair məsələ olub.

---

[69] 15 dekabr 2017-ci il tarixli 917-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 12 yanvar 2018-ci il, № 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 1, maddə 4)
6 mart 2018-ci il tarixli 1022-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 28 mart 2018-ci il, № 68, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 389)
18 dekabr 2018-ci il tarixli 1397-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 11 yanvar 2019-cu il, № 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 17)
1 fevral 2019-cu il tarixli 1460-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 24 fevral 2019-cu il, № 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №2, maddə 180)

18 dekabr 2018-ci il tarixli dəyişiklik isə bir neçə redaktə xarakterli məsələləri əhatə etməklə yanaşı, daha bir məhdudlaşdırıcı məqamı əhatə edib, seçkilərin elan edilməsi üçün zəruri müddəti 75 gündən 60 günə endirib.
Nəhayət, sonuncu, 1 fevral 2019-cu il tarixli dəyişiklik də tamamilə redaktə xarakterli olub, hərbi birləşmələrin struktur dəyişikliyindən sonra Məcəllədə də bu istiqamətdə ad dəyişiklikləri aparılıb.

***MSK-nın normativ xarakterli aktları***

MSK-nın aktlarının monitorinqi həmin aktlarla seçkilərə dair əsas normativ hüquqi akt sayılan Seçki Məcəlləsi arasında ciddi uyğunsuzluqları aşkarlayıb. Məsələn, "Seçki komissiyası protokolunun doldurulması", "Exit-poll", "Seçki komissiyalarında şikayətlərin araşdırılması", "Mətbuat qrupu", "Veb-kamera" və "Səlahiyyətli nümayəndələrinin statusu" haqqında MSK-nın aktları Seçki Məcəlləsində nəzərdə tutulan təminatları əhəmiyyətli şəkildə məhdudlaşdırır.[70]

## VI. PARLAMENT SECKİLƏRİNƏ HAZIRLIQ

### A. SEÇKİ ADMİNİSTRASİYASI

Parlament seçkiləri ***Mərkəzi Seçki Komissiyası (MSK)***, 125 ***Dairə Seçki Komissiyası (DSK)*** və 5426 ***Məntəqə Seçki Komissiyasından (MnSK)*** ibarət üç pilləli struktura malik qurum tərəfindən idarə olunur. Bütün komissiyalar beşillik müddətə seçilən, müvafiq olaraq 18, 9 və 6 nəfərdən ibarət daimi orqanlardır. MSK üzvləri, DSK sədr və katibləri istisna olmaqla, digər komissiya üzvləri daimi əməkhaqqı almır, yalnız seçkilər dövründə qısamüddətli əməkhaqqı alırlar. MSK üzvləri parlament tərəfindən seçilir, DSK-lar Mərkəzi Seçki Komissiyası və MnSK-lər isə müvafiq DSK-lar tərəfindən təyin edilir. Komissiya üzvlərinin üçdə biri parlament çoxluğunu, üçdə biri parlament azlığını və üçdə biri isə bitərəf deputatları təmsil edir. Qanuna əsasən, bütün komissiya sədrləri parlament çoxluğunun namizədidirlər. Beləliklə, parlament çoxluğu "de-fakto" bütün seçki komissiyalarında səs çoxluğuna malikdir. ATƏT/DTİHB 2010[71] və 2018-ci il[72] seçkilərindən sonra və Venesiya Komissiyası[73] dəfələrlə tövsiyə etmişdir ki, mövcud formula seçki komissiyasının hakimiyyətyönlü qüvvələrin hakimiyyəti altında olmamasını və ictimaiyyətin, xüsusilə, seçkilərin nəticələrini mübahisə edən siyasi partiyaların inamını qazanmasını təmin edə biləcək üsulla yenidən baxılsın. Bu tövsiyə yenə də baxılmamış qalır.

Seçki üçün texniki hazırlıq prosesi gedir, seçki administrasiyası müvafiq son tarixləri gözləməklə bərabər, tələb olunan əlavə normativ sənədləri qəbul etməkdədir. MSK iclasları mətbuat və müşahidəçilərə açıqdır. Qərarlar dövlətin maliyyələşdirdiyi media və MSK-nın internet səhifəsi vasitəsilə ictimaiyyətə açıqlanır. Bununla belə, MSK əvvəlki müsbət təcrübədən fərqli olaraq bu seçkidə rəsmən namizədliklərini irəli sürmüş şəxslər və partiyalar barədə öz internet resursunda hələki ətraflı məlumat yaymır, yalnız komissiyanın iclaslarının sonunda ümumiləşmiş statistika verir.

### B. SEÇİCİ QEYDİYYATI

Məhkəmə qərarı ilə bu hüquqdan məhrum olan şəxslər istisna olmaqla, 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək və seçilmək hüququ var. Seçici qeydiyyatı passiv xarakter

---

70 http://idi-aze.org/az/sekilere-dair-qanunvericiliyin-analizi-pdf/
71 https://www.osce.org/odihr/75073?download=true
72 https://www.osce.org/odihr/elections/azerbaijan/388580?download=true
73 https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2004)016rev-e

daşıyır və seçici siyahıları MSK-nın idarə etdiyi seçicilərin daimi qeydiyyat bazası əsasında tərtib olunur. Vətəndaşın seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilməsi üçün həmin vətəndaşın olduğu yer üzrə daimi yaşaması (seçkilərin elan olunması günündən əvvəlki 12 ayın azı 6 ayı ərzində) faktı əsas götürülür.

Secki Məcəlləsinə əsasən seçicilərin daimi siyahısı MSK-nın muəyyənləşdirdiyi formada hər il mayın 30-dək hər bir secki məntəqəsi üzrə təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilir. Seçki məntəqəsinin ərazisində yaşamalarını təsdiq edə bilən və seçki hüququ olan vətəndaşlar adı daimi seçici siyahısında yoxdursa seçki günü MnSK-da olan əlavə seçici siyahısında qeydiyyatdan keçə bilərlər.

2019-cu il may ayının 29-da təsdiq olunmuş məlumata görə, ölkə üzrə vahid seçicilər siyahısına **5 212 902** seçici daxil edilib. Ancaq bu rəqəm Azərbaycan Respublikası Dovlət Statistika Komitəsinin açıqladığı rəqəmlə kəskin surətdə fərqlənir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2019-cu ilin 1 yanvarına olan əhalinin (9 981 500) yaşı 18 olan hissəsinin sayı təqribən 7 353 000-dir.[74] Yəni əhalinin 73 faizindən çoxu seçicidir. Ancaq MSK-nın açıqladığı rəqəmdən məlum olur ki, seçicilər əhalinin 52 faizini təşkil edir. Bununla da ölkədə seçicilərin sayı ilə bağlı yuxarıda adı çəkilən orqanların açıqladığı rəqəmlərdə 21 faiz - 2 140 098 nəfər fərq ortaya çıxır.

Qeyd edək ki, seçkilərdə iştirak edən tərəflərin, yerli QHT-lər və media təmsilcilərinin, ATƏT/DTİHB-nun dəfələrlə ifadə etdikləri narahatlıqlara baxmayaraq, yuxarıda adı çəkilən orqanlar bu uyğunsuzluqlara ağlabatan izah verməyiblər. Bununla əlaqədar IDI 2015-ci ildə yaydığı "Seçici Qeydiyatının Auditi" adlı araşdırmasında problemin mahiyyətini daha ətraflı izah edir.[75]

## C. SEÇKİ DAİRƏLƏRİNİN TƏŞKİLİ

IDI seckiqabağı dövrdə bəzi dairə secki komissiyalarının təşkili ilə bağlı çatışmazlıqlar qeydə alıb. Belə ki, Secki Məcəlləsinin 29.5-ci maddəsində qeyd edilir: *"Mərkəzi Seçki Komissiyası, seçicilər barəsində məlumatlar əsasında, hər beş ildən bir, vahid seçicilər siyahısı tərtib edildikdən sonra 30 gün müddətində seçki dairələrinin yaradılması sxemini və onun qrafik təsvirini təsdiq etməlidir."*

Həmin Məcəlləsinin 29.1-ci maddəsində göstərilir: *"MSK hər 5 ildən bir 125 seçki dairəsi yaradır. Seçki dairəsi bir qayda olaraq seçicilərin orta təmsilçilik norması əsasında yaradılır. Seçicilərin orta təmsilçilik norması seçicilərin sayının 125-ə bölünməsi yolu ilə müəyyənləşdirilir."*

Seçki Məcəlləsinin 29.3.1-cu maddəsinə gorə isə *"Azərbaycan Respublikasının inzibati ərazi vahidinin hüdudları daxilində, bir qayda olaraq, orta təmsilçilik normasından 5 faizdən, yolu çətin və ucqar yerlərdə isə 10 faizdən çox (az) olmamaq şərti ilə onların ərazisində qeydə alınmış seçicilərin sayı seçki dairələrində təqribən bərabər olmalıdır".*

Araşdırma zamanı məlum olur ki, seçki dairələrinin yaradılması sxeminin və onun qrafik təsvirinin təsdiqi sonuncu dəfə 13 oktyabr 2014-cu il tarixdə MSK-nın Qərarı ilə həyata keçirilmişdir. Buradan aydın olur ki, 29 may 2019-ci il tarixdə təsdiq olunmuş vahid seçicilər siyahısının tərtib edilməsindən sonra 30 gün yox, artıq 6 aydan çox müddət keçib. Belə olduğu halda, MSK bəzi seçki dairələrini qanunun tələb etdiyi qaydada təşkil etmədiyinə görə, seçki dairələri ərazisində seçicilərin sayında uyğunszluqlar yaranıb. Məsələn, 29.1-ci maddəyə əsasən seçki dairələri ərazisində seçicilərin orta təmsilçilik sayı **41703** nəfər olmalıdır. Ancaq MSK-nın açıqladığı son rəsmi məlumatda seçki dairələri üzrə seçicilərin sayında orta təmsilçilik norması pozularaq kəskin fərqlər müşahidə olunub.

---

[74] https://www.stat.gov.az/source/demoqraphy/

[75] https://idi-aze.org/az/seici-qeydiyyatnn-auditi-pdf/

- 5 saylı Şahbuz-Babək seçki dairəsi ərazisində seçicilərin sayı 27374 nəfər,
- 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə 30482,
- 78 saylı Lerik seçki dairəsi üzrə - 32857,
- 37 saylı Nizami birinci seçki dairəsi üzrə isə 32892 nəfər göstərilib.

- Ancaq 9 saylı Binəqədi ikinci seçki dairəsi - 49506,
- 26, 27 və 28 saylı Sabunçu birinci, ikinci və üçüncü seçki dairələri üzrə müvafiq olaraq –51430, 51828, 52939,
- 54 saylı Şabran-Siyəzən seçki dairəsi 52200,
- 125 saylı Zəngilan – Qubadlı seçki dairəsində isə seçicilərin sayı 53347 nəfərdir.[76]

Qeyd edək ki, qanunda istisna hallar kimi göstərilmiş, hətta 10 faiz dəyişikliyin tətbiq olunması zamanı belə, bu qədər fərq yaranmır. Çünki 10 faiz fərq olduğu təqdirdə 41703 nəfərin üzərinə ya 4170 nəfər əlavə edilir və ya çıxılır.
Nəticə isə onu ifadə edir ki, seçki dairələri arasında olan balansın pozulması həm seçilən, həm seçən tərəflər üçün bərabərlik prinsipini pozur, onların işləmək imkanlarını çətinləşdirir və bu da səsvermə hüququnun bərabər olmasını şübhə altına qoyur.

## VII. NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

**IDI Parlament seckiləri öncəsi vəziyyətlə bağlı aşağıdakı yekun nəticələrə gəlir:**

- Yerli və beynəlxalq təşkilatların, aparıcı qərb ölkələrinin çağırışlarına baxmayaraq, hakimiyyət siyasi və vicdan məhbusu kimi tanınan şəxslərin həbsdən azad edilməsini təmin etməyib;
- AİHM qərarlarına baxmayaraq, keçmiş siyasi məhbusların üzərindən məhkumluq götürülməyib;
- Seçki Məcəlləsinin ATƏT və Avropa Şurası Venesiya Komissiyasının tövsiyyələri əsasında təkmilləşdirilməsi baş verməyib;
- ATƏT DTİHB tərəfindən 2010 parlament, 2013 və 2018 prezident seçkilərindən sonra tövsiyə və təkliflər kimi verilmiş olan ölkədə azad, ədalətli və şəffaf seçkilərin keçirilməsi üçün siyasi şəraitin demokratikləşdirilməsi yönündə addımlar atılmayıb;
- Sərbəst toplaşmaq və birləşmək azadlığının təmin olunması sahəsində müsbət dəyişikliklər baş verməyib, əksinə şərait pisləşdiyinə görə siyasi partiyalar və QHT-lərin ölkə üzrə fəaliyyəti həm qanunvericilik, həm də fəaliyyət mühiti baxımından ciddi məhdudiyyətlərlə müşayiət olunur;
- Söz və mətbuat azadlığının təmin olunması yönündə nailiyyətlər əldə olunması, televizayalarda siyasi plüralizmin qorunması əvəzinə media mühiti daha da pisləşib;
- Seçici siyahılarının tərtibi ilə bağlı proses həyata keçirilərkən aşkarlıq təmin edilməyib, Dövlət Statistika Komitəsinin ölkə əhalisinin sayı barədə məlumatları ilə MSK-nın daimi seçicilər siyahısı arasındakı uyğunsuzluqlar araşdırılmayıb.

**IDI 9 fevral 2020-ci ildə kecirilləcək Parlament seçkiləri öncəsi vəziyyətlə bağlı aşağıdakıları təklif edir:**

- Demokratik seçki mühitinin yaradılmasına töhvə vermək üçün siyasi və vicdan məhbusu kimi tanınan şəxslər həbsdən azad edilməli, keçmiş siyasi məhbuslar üzərində qanunsuz olaraq saxlanılan məhkumluq götürülməlidir;

[76] https://www.infocenter.gov.az/page/voters/

- Azad və ədalətli seçkilərin keçirilməsi üçün söz və ifadə azadlığı təmin edilməli, media mühitini məhdudlaşdıran amillər aradan qaldırılmalıdır;
- Sərbəst toplaşmaq və birləşmək azadlığnın təmin olunması yönündə ciddi tədbirlər həyata keçirilməli, bu məqsədlə siyasi partiyalar və QHT-lərə sərbəst fəaliyyət imkanları yaradılmalıdır. Hələ də açıq saxlanılan qondarma cinayət işləri ləğv olunmalı, ictimai şəxslərə qoyulan səyahət qadağası və sərhəddə əsassız yoxlamalar aradan qaldırılmalıdır;
- Piket, mitinq və yürüşlərin keçirilməsi üçün mərkəzdə yerlər müəyyən olunmalı və aksiyaların təhlükəsizliyi təmin edilməlidir;
- Seçki komissiyalarına və seçki prosessinə yerli icra strukturlarının, vəzifəli şəxslərin müdaxilələrinə birdəfəlik son qoyulmalıdır;
- Müstəqil və müxalif namizədlərin qeydiyyatına hər hansı maneə yaradılmamalı, rəqabətli seçki mühitinin formalaşması üçün siyasi iradə nümayiş etdirilməlidir;
- Seçkilərdə ictimai etimadın və rəqabətli mühitin yaradılması üçün televiziyalarda, o cümlədən İctimai televiziyada muxalif və müstəqil namizədlərin debatları təşkil edilməli, fikir plüralizmi təmin edilməlidir;
- MSK tərəfindən qəbul olunmuş normativ xarakterli aktların Seçki Məcəlləsilə uyğunsuzluqları aradan qaldırılmalı, Məcəllənin tələbləri və beynəlxalq qurumların müvafiq tövsiyələri yerinə yetirilməlidir.
- AİHM-nin seçki hüququnun pozuntusu ilə bağlı qərarları dərhal icra edilməli, eyni pozuntuların təkrarlanmaması üçün AŞ NK-nın tələb və tövsiyələrinə əməl edilməlidir.
- Məhkəmə hakimiyyətinin müstəqilliyi təmin edilməli, məhkəmələrə və hakimlərə siyasi basqılar aradan qaldırılmalı və seçki pozuntuları ilə bağlı şikayətlərin səmərəli və ədalətli araşdırılması təmin edilməlidir. Seçki hüquqlarının pozulması üzrə şikayətlər araşdırılarkən AİHM-in seçki pozuntuları ilə bağlı qəbul etdiyi qərarlara və seçki hüququ üzrə müəyyən etdiyi standartlara əsaslanılmalıdır.
- MSK seçici siyahılarının vəziyyəti ilə bağlı meydana çıxan qüsurları aradan qaldırmaq üçün tədbirlər həyata keçirməlidir.

**IDI İdarə Heyəti**

Bakı şəhəri, 25 dekabr 2019-cu il

**Əlaqə :**

**Tel:** (+994 55) 234 76 76

**E-mail:** idi.azerbaijan@gmail.com

**Veb səhifə:** www.idi-aze.org

**Facebook page:** https://www.facebook.com/DTI.IDI/